**Siddiqə Hacıyeva**
**dissertant**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**

# Məkan mühitinin bədii estetik problemlərinin həllində Cəlil Hüseynov yaradıcılığının rolu

**Xülasə:** Xalq rəssamı Cəlil Hüseynovun məkanın bədii estetik həllində həyata keçirdiyi monumental rəngkarlıq nümunələrinin bədii açıqlaması məqalənin məzmununu təşkil edir. Milli Elmlər Akademiyası, Sağlamlıq mərkəzinin interyerlərində yaratdığı belə nümunələrdəki yüksək bədii həll, kompozisiyanın məkan mühitini ilə yaratdığı əlaqə, işıq-kölgə effektlərinin uğurlu həlli, eləcə də formaların həm real, həm də simvollaşdırılmış ifadələrlə özünü büruzə verməsi rəssamın əvəzsiz yaradıcı məharətini təsdiqləyir.

**Açar sözlər*:*** məkan, mühit, memarlıq, rəssam, Cəlil Hüseynov

Xalq rəssamı Cəlil Hüseynovun mühitin bədii estetik problemlərinin həllində həyata keçirdiyi monumental divar rəsmləri özünün dərin məzmunu, uyğun məkan kompozisiyası, təqdim etdiyi mövzunun dinamik bədii ifadələri ilə diqqət çəkir. Həmin əsərlərdəki monumentallıq öz təbiəti etibarı ilə bədii-estetik kateqoriyası ilə həmahənglik təşkil edir.

Cəlil Hüseynovun bu istiqamətdəki əsərlərinə yüksək obrazlılıq, ictimai əhəmiyyətli məzmun, fikrin miqyaslılığı və digər bu kimi məfhumlar xarakterikdir. İstənilən məkan üçün seçilmiş monumental divar rəsmlərində, əsasən də interyerlərdə olan əsərlərində rəssam, onu uzaq və yaxın məsafələrdən qavrayış üçün ən doğru şəkildə hesablamağı bacarmışdır. Məsələn, sağlamlıq mərkəzi, mədəniyyət evi, Milli Elmlər Akademiyasının interyerləri üçün edilmiş monumentlərdə onların həm ümumən ilk baxışdan qavranılması, həm də hissələrinin hər bir detalının ayrıca diqqət cəlb edərək geniş baxış tələb etməsi nəzərə alınmışdır. İstedadlı rəssam bu tipli əsərlərin qarşısına qoyulan miqyas, siluet, ritm, rəng və kompozisiya həllərinin tamlığı kimi uzaqdan təsiredici dekorativ keyfiyyətlərin digər – insan obrazının xarakteristikasının çoxşaxəliliyi, detalların ifadəliliyi, material və formaların gözəlliyi kimi xüsusiyyətləri ilə ən uyğun formada əlaqələndirmək tələbini hər zaman məharətlə həyata keçirmişdir. O, bədii ifadəsi ilə diqqət çəkən bu yaradıcılıq nümunələrinin nəinki tamaşaçı kütlələri tərəfindən küll halında qavranılmasını, həmçinin onların ayrı-ayrılıqda hər bir tamaşaçı ilə ünsiyyətə girmək qüvvəsini də nəzərə alaraq həyata keçirmişdir.

İnsan və ətrafdakı əyani-məkan mühitini bir-biri ilə əlaqələndirməyi, ölçüləri, divar rəsminin icra materialları və texnikasının ifadə xarakterizəsinin fəal vasitəsinə çevirməyi yüksək səviyyədə bacaran Cəlil Hüseynov incəsənətin bu sahəsində əsərin ölçüsünün çox vacib və onun qavranılmasında əsas rollardan birini ifa etdiyi halda, əsərin monumentallığının həddini sadəcə onun ölçüsünün təyin etmədiyini də mükəmməl kompozisiyaları ilə hər dəfə təsdiq etməyə nail ola bilmişdir. Bir məkanda yaradılmış monumental divar rəsminin daha təsirli, yüksək əhval-ruhiyyədə qavranılması, yaradılmış əsərin ruhunu hiss etməsi və onun ifadə-üslub sisteminə daxil olması üçün həmin əsərin də ətraf mühitlə əlaqəli yaradılması vacib şərtdir təbii ki. Bu mənada Cəlili Hüseynovun əsərlərindəki dinamik forma və çalarlar, anlaşıqlı kompozisiya quruluşu, məkanın təyinatından irəli gələn əlaqələndirilmiş təsvirlərin realistik, eləcə də simvollaşdırılmış bədii ifadələri böyük maraq doğurur. Çünki bir əsərin ruhuna hakim kəsilmiş yüksək əhval-ruhiyyə əsərin tam və dərindən qavranılmasında tamaşaçı üçün də olduqca vacib nüans hesab edilir. Belə əsərlərdən olan rəssamın 1978-ci ildə Xarkov şəhərində sağlamlıq mərkəzinin interyeri üçün nəzərdə tutulmuş keramika üzərində rəsmində insan və ətraf mühitin sintezli təsvirinin mükəmməlliyini yaradan rəssam burada sırf mövzunu tutaraq onun tam daxilində hərəkət etmədən insan ruhunun rahatlığı üçün fiziki sağlamlığın təəssüratını yaşadan real elementləri deyil, xoşbəxt bir mühiti canlandıraraq, yaşamaq həvəsini, həyatın, yaşamın gözəlliyini, həvəsini önə çəkmişdir.

Təsvir məkanında böyük bir hovuzun olması, kənarlarda insanlar üzgüçülük üçün nəzərdə tutulmuş detalların yerləşməsinə baxmayaraq rəssam burada mövzuya aid real tərənnümü deyil, onun bəxş edəcəyi ruh sağlamlığını və bundan doğan sevimli həyatı canlandırmağı əsas məqsəd hesab etmişdir. İstedadlı rəssam dərk edir ki, monumental incəsənət əsərindən onun həsr olunduğu mövzu haqqında tam, müfəssəl məlumatın açıqlanmasını tələb etmək və ya ondan bu məlumatı gözləmək o qədər də vacib deyil. Bu zaman yaradıcı təxəyyülün təqdim etdiyi psixoloji həssaslıq təsvirin məzmun tələbindən irəli gələrək məkana gəlmiş tamaşaçısının məhz bu zaman ruhunu, istəklərini tutmaq, onun şüur altında yatan gözəl həyatın sağlam vücudda olması prinsipindən çıxış edərək ifadəli təsvir gücü yaratmağı bacarmışdır. Hər şeydən əvvəl nəqli məlumatın əksinə olaraq, təəssüratın ifadə etdiyi təsvirdə tamaşaçıda kiçik və ya daha fərqli ölçüdə daxili həyəcanın yaranması şübhə doğrultmur. Bu mənada əsərdə cansıxıcı nəqli məlumat yox, ümumi atmosferə uyğun parlaq bədii ifadə xüsusi olaraq önə çəkilmişdir. Çünki istənilən tamaşaçının mənəvi tələbi bir əsərdən daha çox bədiilik, bədii ifadə gözləməsidir.

Bu mənada mükəmməl kompozisiya quruluşunu bağışladığı yüksək təsirin təsvir ifadəsində iriölçülü insan fiqurunun açılan geniş qapıdan daxil olaraq ağacların, yarpaqların, uçuşan quşların olduğu gözəl məkana daxil olması, onun heyrətə gəlməsi elə real formalarla əks etdirilmişdir ki, həyatın saf nəfəsi belə özünü hiss edirməkdədir. Əsərdə sıradan olan insanın parlaq obrazı yaradıcı təxəyyülə tamaşaçının şərikli iştirakına təkan verir. Rəssam ayrı-ayrı detalların təsvirinə diqqət yetirək hər birinin özünəməxsus təsirliyini vermişdir. Məsələn, ağac tərənnümündə onun budaqlarının şaxələnərək kənarlara, yüksəyə yayılması ilə yanaşı, torpaq üzərində deyil, ətrafına yayılan köklərini canlandırmışdır. Obrazın digər hissəsində isə yarpaqlı iri budağın təkbaşına tərənnümü canlılıq, dinamikliklə yanaşı, həm də simvollaşdırlmış əhəmiyyəti ilə diqqəti cəlb edir. Bir-birinə qarşı qanadlanaraq uçan quşların pərvazları belə özünün hərəkətli tərənnümü sayəsində tamaşaçısını həyəcanlandırmağa qadirdir.

Rəssam hətta ara təsvirlərdə ulduz elementlərinin parlaq təzahürlərindən də da istifadə etmişdir. Lakin bununla demək olmaz ki, əlaqəsiz detallar təsviri doldurmaq məqsədi güdərək rəsm üzərində yer almışdır. Təbii ki, bu cür qənaət olduqca yanlış təhlil olar. Çünki insan və mühit sintezindən istifadə edən sənətkar obraz və onun daxilindəki canlanmanı, həyat eşqini, həvəsini əlaqəli şəkildə həll edərək, dinamik formaların uyğun və düşündürücü əlaqələndirməsi ilə mükəmməl kompozisiya quruluşu yaratmışdır.

Qapını iki əli ilə açan obrazın arxa fonu daha tünd çalarda həll edilərək ön səhnənin daha parlaq ifadə olunmasına imkan yaratmışdır. Təbiət motivlərinin fiqurla nisbətdə daha kiçik formada verilməsilə, rəssamın insanın daxili aləminə işarə etmək məqsədi daha aydın şəkildə özünü büruzə verir.

Keramika üzərində işıq və kölgə effektlərindən məharətlə istifadə edən rəssam həm də perspektiv qanunların bədii ifadəsində belə böyük məharət göstərmişdir ki, bu da vizual olaraq məkanın həm də daha geniş görünməsinə imkan yaradır.

Və nəticədə özünün estetik və mənəvi tərbiyə vasitəsi rolunu icra edən sənət əsəri meydana gəlmişdir. Ola bilər ki, müəllif burada fikrini açıqlayan çalarları bütünlüklə ifadə edə biləcək rəngarənglikdən istifadə etməmiş olsun. Lakin əsas fakt odur ki, qeyd edilmiş monumental divar rəsminin bədii məzmunu izləyənləri üçün heç bir mənada qaranlıq qala bilməz. Çünki həqiqi, realist bədii obraz ən müxtəlif insanlar üçün birmənalıdır, o tamaşaçıda onun özünün həyat təcrübəsinə əsaslanan müəyyən təəssürat çevrəsi yaradır.

Müqayisə üçün Xalq rəssamı Sirus Mirzəzadənin yaratdığı "Abşeron motivləri" adlı monumental divar rəsmini misal çəkək. Rəssam burada səkkizguşəli ulduz elementinin stilizə edilmiş formasından mərkəzdə istifadə edərək günəş simvolunu canlı obraz kimi ara sahədə yerləşdirmişdir. Əsərdəki

dinamizm müxtəlif simvolik məzmunlu milli ornamental detallar verilmiş həndəsi formalar üzərindən oynaq atışları ilə həll edilmişdir. Bundan əlavə quş, gül kimi detalların real tərənnümü də canlılıq yaradaraq bədii ifadənin mükəmməlliyini təqdim edir. Və bütün bunlar milli təsvir detallarının sayəsində tamaşaçısında özünəməxsus təəssüratın yaranmasına səbəb olmuşdur.

Təbii ki, monumental incəsənət əsərinin yaradılması prosesində rəssam konkret memarlıq ansamblı ilə bağlı müəyyən kompozisiya mövzuları, kompozisiyalarla üzləşməli olur. Bu zaman kompozisiya təsvirin əsasında olan daxili, məfkurəvi səbəblərdən yaranır. Burada rəssamın məqsədi – canlı və anlaşıqlı obraz və incəsənət əsərinin ideya məzmununu açıqlaya biləcək ifadə vasitələri tapmaqdan ibarət olur.

Qeyd edilən yaradıcı məqsədi hər zaman yüksək səviyyədə həyata keçirməyi məharətlə bacaran Cəlil Hüseynovun 1981-ci ildə Xarkov şəhəri, Mədəniyyət evinin interyerində yaratdığı "Metrotikənlər" adlı monumental əsəri sənətkarın yaradıcılığında xüsusi yerə sahibdir.

Əsər əsasən qəhvəyi tonlarla yerinə yetirilmişdir. Geniş bir məkan tərənnümünü təsvir edən monument çoxfiqurlu və olduqca işgüzar ortamı təqdim edir. Kompozisiyanın plastiki həllində statiklik və dinamiklik qarşılaşdırılaraq uyğun formalarla öz əksini tapmışdır. Belə ki, bəzi fiqurların hərəkətliliyi, bəzilərinin isə sakitcə dinləmələri qarşılaşdırılmış əks münasibətlərin təsiri kimi əsərdə harmonik ifadənin əldə edilməsinə imkan verir. Arxadan işıq şüası ilə aşılmış ön səhnə təsvirində sənətkarın böyük bir təcrübə əldə edərək kompozisiya quruluşu üzərində çalışması birmənalıdır. Bunu həm fəhlələrin uyğun geyim formaları, həm tunelin məkan görüntüsü, eləcə istifadə olunan materiallar, mühəndislərin üzərində mübahisə apardıqları layihənin açıq görünüşü və digər bu kimi ünsürlər deyilənləri bir daha təsdiqləyir.

Əsərin uğurlu nəticələrinə səbəb olan digər nüans onun tənasübləri, insan formalarının və digər elementlərin quruluş plastikasından yaranan simmetriya qaydasına doğru əməl edilməsidir. Nəzərə alsaq ki, əsər realistik üslubda həll edilmişdir, o zaman burada həmin mütənasibliyin uyğun formalarının əsasları tərənnüm edilərək canlı təsvir forması kimi çıxış edir. Məsələn, yerdə verilmiş qalın zəncirlərin olduqca real formada təqdim edilməsi onun ağır çəkisi haqqında təəssürat yaradır.

Rəssam eyni zamanda formaları bütün təsvir məkanında eyni ağırlıqda paylaşmaqla onun hər bir nöqtədən aydın qavranılmasını təmin etmişdir. Mərkəzdəki üç fiqur hər iki tərəfdə gedən müzakirələrin nəticəsini gözləyərək öz statikliyi ilə neytrallıqlarını təqdim edirlər. Onlardan biri bir az əyilmiş, digəri isə düz dayanmış formada əllərini dəmir arabaya dayayaraq, digər fəhlə isə dəmir lövhəli təkərli iri qutuya dirəklənərək dinləmə mövqeyindədirlər.

Tablonun sol hissəsində mühəndislərin özünəməxsus şəkildə bədii ifadənin real görüntüsü, digər tərəfdə isə bir-biri ilə müzakirələr aparaq başqa fəhlələrin canlı görüntüsü əsərin hərəkətliliyini, canlılığını diqqətə çəkir.

Tuneli əhatə edən qalın dəmirliklər sanki təsviri çərçivəyə alaraq onun daha aydın və məqsədli məzmun ifadəsini xüsusi olaraq önə çəkir. Kölgələri əmələ gətirdiyi divarların arakəsmələri, sütun tipli ifadələr onun düz fon üzərində cansıqıcı təsvir kimi qəbul edilməsinə imkan verməyərək forma və elementlərlə bərabər əsərin dinamizmini canlandırır. Hətta tablonun yuxarı hissəsində verilmiş üçkünc detalların simmetrik sıralanması, dəmir çərçivənin üzərindəki sarı kiçik nöqtələr belə, əsərdəki təsadüfi, gərəksiz təsvir atışları düşüncəsizi təkzib edərək özünün ifadəlilik prinsipində oynadığı rolu təsdiqləyir.

Əsərdə ritm qaydasının, yəni, böyük və kiçik formaların hərəkət və sükutun, işıq və kölgənin qanunauyğun növbələnməsi, ardıcıllığın göz yorucu sıralama ilə deyil uyğun bədii ifadələrlə verilməsi onun uğurunu şərtləndirən əlamətlərdəndir. Məsələn, monumental divar rəsminin görüntüsündə iri formatın təqdim etdiyi təsvirdə olduqca dağınıqlığın, pərakəndəliyin nəzərdə tutulmuş bir qədər dar və qaranlıq məkanda verilməsi anlaşılmaz, tez qavranılacaq tərz olmaqdan uzaqlaşardı. Bunun üçün rəssam bütün obrazları səhnənin önünə gətirərək onları uyğun mövqelərdə tərənnümün verməyi məharətlə həyata keçirmişdir.

Arxa fon rolunu oynayan aydın işıqlı mənzərənin kölgələrlə həll edilmiş şəhər mühitini əks etdirməsi də onu gələcəkdə daha mükəmməl, gözəl və rahat yaşayış yerinə çevirən insan əməyinə diqqəti yönəldir. Bu diqqət rəssamın təqdim etdiyi mövzunun üzərində cəmlənərək onu bir daha düşünməyə vadar edir.

Kompozisiyanın tətbiqində perspektivin əhəmiyyətini doğru dəyərləndirən rəssam görüntünün daha dolğun verilməsinə nail olmuşdur. Belə ki, o, insan fiqurlarının baxış nöqtəsindən və insanın tutduğu vəziyyətdən asılı olaraq perspektiv təsvirdə qurulma ardıcıllığına çox diqqətlə yanaşmışdır. Kölgənin perspektivdə təsvirinin kompozisiyada həlledici rol oynadığını əsas hesab edən sənətkar bu cür bədii ifadə forması ilə təsvirin süjet xəttini xüsusi olaraq üzə çıxarmışdır.

Rəssam insan xarakterikliyini sadəcə onların cizgilərində deyil, həm də bədən jestlərində ifadə etmişdir ki, bu da hər bir sənətkardan yaratdıqları obrazlara dərin psixoloji yanaşma tələb edir. Özünə güvənən, əmr gözləyən, müzakirələrin nəticəsini maraqla izləyən, təcrübəsini bölüşən, öz fikri olan və başqasının fikri ilə hərəkət edən və s. bu kimi xarakterik xüsusiyyətlərin bədii əksi əsərdə dolğun şəkildə öz ifadəsini tapmışdır.

Cəlil Hüseynovun divar rəngkarlığında bütün monumental incəsənət üçün ümumi əlamət olan onların müəyyən memarlıq tikilisi və ya təşkili məkanla bilavasitə fiziki əlaqəsində, onların ruhunu və xarakterini açıqlayan real mühitin formalaşmasında iştirakıçısına çevirmə bacarığı özünəməxsus formalarla rəssamın fərdi üslubunu müəyyənləşdirir.

**Ədəbiyyat**:

1. Комаров А.А. «Технология материалов стенописи», М.1989.
2. Габибов Н. «Живопись Советского Азербайджана». Баку, 1982.
3. http://kaspi.az/az/sakitliyin-poetikasi
4. https://www.baki-xeber.com/medeniyyet/88113.html
5. https://azcarpetmuseum.az/front/az/moreExhibitions/792

**Роль творчества Джалила Гусейнова в решении художественно-эстетических проблем пространственной среды**

**Резюме**

Статья содержит в себе художественное описание монументальных картин народного художника Джалила Гусейнова в художественно-эстетическом решении пространства Высокое художественное решение, связь композиции с пространственной средой, удачное решение эффектов светотени, а также отражение форм как в реальных, так и в символических выражениях таких образцов, созданных в интерьерах Центра здоровья, Национальной академии наук подтверждают бесценные творческие способности художника.

**Ключевые слова:** пространство, среда, архитектура, художник, Джалил Гусейнов

**The role of Jalil Huseinov's creativity in solving the artistic and aesthetic problems of the spatial environment**

**Summary**

The content of the article is the artistic description of the monumental paintings of the People's Artist Jalil Huseinov in the artistic and aesthetic solution of the space.

The high artistic solution, the connection of the composition with the spatial environment, the successful solution of light and shadow effects, as well as the reflection of forms in both real and symbolic expressions of such samples created in the interiors of the Health Center and the National Academy of Sciences confirm the artist’s invaluable creative skills.

**Key words:** space, environment, architecture, artist, Jalil Huseinov